# Quba soyqırımı haqqında yeni kitab

**Bu günlərdə "Azərbaycan" nəşriyyatı yazıçı-jurnalist Müzəffər Məlikməmmədovun "Qanlı dərə. 1918-ci il Quba faciəsi" kitabının əlavələr olunmuş və tamamlanmış ikinci nəşrini çapdan buraxıb.**

Adalet.az xəbər verir ki, kitab Azərbaycan, Türkiyə, Rusiya, Dağıstan arxivlərinin sənədləri, həmin dövrün mətbuat orqanlarının materialları, işğalçılarla döyüşmüş insanların və qanlı hadisələrin şahidi olmuş adamların xatirələri əsasında qələmə alınıb.

Quba faciəsi" kitabının birinci nəşri nəinki respublikamızda, həm də onun hüdudlarından kənarda geniş əks-səda doğurub

Quba soyqırımının ilk tədqiqatçısı olan Müzəffər Məlikməmmədov erməni daşnaklarının və bolşeviklərin 1918-ci ildə Quba qəzasında törətdikləri qırğınlarla əlaqədar olaraq 40 ildən çox axtarışlar aparıb. Onun 2009-cu ildə işıq üzü görmüş "Qanlı dərə. 1918-ci il Quba faciəsi" kitabının birinci nəşri nəinki respublikamızda, həm də onun hüdudlarından kənarda geniş əks-səda doğurub. 2015-ci ilin mart ayında İsveçrənin Azərbaycanlılar Konqresinin 1918-ci ilin soyqırımı ilə bağlı bu ölkənin siyasi partiyalarının liderləri və İsveçrə parlamentinin üzvləri ilə birgə keçirdiyi tədbirdə digər sənədlər və kitablarla yanaşı "Qanlı dərə. 1918-ci il Quba faciəsi" kitabı da erməni daşnaklarının törətdikləri vəhşilikləri tutarlı faktlarla sübuta yetirən mənbə kimi təqdim olunub.

Respublikamızın ayrı-ayrı rayonlarından, xüsusən də şimal bölgəsinin rayonlarından 2 mindən çox oxucunun müraciətindən sonra müəllif kitabın əlavələr olunmuş və tamamlanmış ikinci nəşrini çapa hazırlamağı qərara alıb və axtarışları davam etdirib.




"Qanlı dərə"də 1918-ci ildə qusarlılar Azərbaycan xalqına təcavüz edən erməni millətçilərinin qarşısını alıb onları darmadağın etmişlər.

Quba soyqırımı tarixə ən dəhşətli qırğınlardan biri kimi düşüb. 1918-ci ildə işğalçı erməni-bolşevik qoşunları Quba qəzasında 167 kəndi dağıdıb, bunlardan 27-ni əhalisi ilə birlikdə yandırıb, 16 mindən çox müsəlmanı qətlə yetirib. Təpədən-dırnağa kimi silahlanmış nizami qoşun hissələrinə qarşı igidliklə döyüşən ləzgilər azərbaycanlılarla və başqa millətlərin nümayəndələri ilə birlikdə işğalçıların 5 mindən çox əsgərini tələf edib. Ona görə də ulu öndər Heydər Əliyev 1998-ci ilin oktyabrın 3-də Qusar rayonu seçiciləri ilə görüşü zamanı belə deyib: "Qanlı dərə"də 1918-ci ildə qusarlılar Azərbaycan xalqına təcavüz edən erməni millətçilərinin qarşısını alıb onları darmadağın etmişlər".

Uzun illər apardığı tədqiqatlar müəllifə Quba qəzasının 1918-ci ildə erməni daşnaklarına və 1920-1928-ci illərdə bolşevik işğalçılarına qarşı döyüşlərdə fərqlənmiş yüzlərlə qəhrəman övladının siyahısını tərtib etməyə imkan verib.

Kitabın "Quba qəzasının şəhər və kəndlərinə vurulmuş ziyan sənədlərdə" adlı yeni bölməsində talanlara və qırğınlara məruz qalmış şəhər və kəndlərin minlərlə sakininin siyahısı verilib. Siyahılarda o vaxt konkret insanlara vurulmuş ziyan, həmçinin şəhər və ayrı-ayrı kəndlər üzrə ermənilər tərəfindən vəhşicəsinə qətlə yetirilmiş insanların adları və soyadları göstərilib. Eyni zamanda, qırğın və talanlara məruz qalmış azərbaycanlıların yaşadıqları kəndlərin, ləzgi, tat, qırız və cek kəndlərinin tam siyahısı dərc olunub.

Yeni nəşrdə ilk dəfə olaraq, Quba qəzasında baş vermiş döyüşlər rəngli sxemlərlə oxuculara təqdim olunub. Ehtiyatda olan general-leytenant Yaşar Aydəmirovun çəkdiyi həmin sxemlər o vaxt işğalçılara qarşı döyüşlərin necə aparıldığı barədə aydın təsəvvür yaradır.